ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 9

Ad__________________ Soyad__________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2024-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!
24.12.2023

**1.** Doğru fikirləri müəyyən edin.
1. Naxçıvan ərazisi yalnız Kiçik Qafqaz tektonik qalxma zonasında yerləşir.
2. Talış dağları Kiçik Qafqaz tektonik qalxmasında yerləşir.
3. Respublikamızın ərazisi vaxtilə Tetis okeanının suları altında olmuşdur.
4. Kür tektonik çökmə zonasında yalnız ovalıqlar mövcuddur.
5. Sumqayıt və Şamaxı şəhərləri eyni tektonik zonada yerləşir.
6. Qafqaz dağları və Kür-Araz ovalığı litosfer tavalarının sərhədlərində yerləşdiyi üçün ildə 1-3 mm qalxır.
A) 2, 3, 4
B) 1, 4, 6
C) 2, 4, 6
D) 1, 3, 5
E) 2, 3, 5

**2**. Cədvələ əsasən müvafiq küləklərə aid olan doğru fikirləri müəyyən edin.

| Passat küləkləri | Qərb küləkləri |
|---|---|
| 1. Qolfstrim və Kurosio okean cərəyanlarının yaranmasına səbəb olur. | 4. 45° və 60°-lik enliklərdə müşahidə edilir. |
| 2. Tropik enliklərin yüksək təzyiq sahəsindən ekvatorial enliklərin alçaq təzyiq sahələrinə doğru əsir. | 5. Şimal yarımkürəsində cənub-qərbdən şimal-şərqə doğru hərəkət edir. |
| 3. Respublikamızda ilin isti dövründə müşahidə edilir. | 6. Tropik alçaq təzyiq sahəsindən mülayim yüksək təzyiq sahəsinə doğru hərəkət edir. |

A) 1, 5, 6
B) 1, 3, 6
C) 2, 3, 4
D) 2, 4, 5
E) 3, 4, 5

**3.** Təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin qorunması üzrə yaradılan təşkilat:

A) YUNEP
B) OPEK
C) ECO
D) GUAM
E) MDB

**4**. Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Peru və Bengel okean cərəyanları Qərb küləkləri okean cərəyanından ayrılır. | *doğru* |
| 2 | Benqal körfəzinin orta duzluluğu İran körfəzinin orta duzluluğundan daha aşağıdır. | *yanlış* |
| 3 | Xəritədə duzluluğu eyni olan nöqtələri birləşdirən xətlər izoqalin adlanır. | *yanlış* |
| 4 | Aysberqlər yüksək coğrafi enliklərdə duzluluğun azalmasına səbəb olur. | *doğru* |
| 5 | İsti okean cərəyanları sahil ərazilərdə rütubətin miqdarının artmasına səbəb olur. | *doğru* |

A) 1, 5
B) 2, 4
C) 2, 3
D) 3, 5
E) 1, 4

**5.** Pa-de-Kale boğazının materikdən ayırdığı ada:

A) İslandiya
B) Böyük Britaniya
C) Qrenlandiya
D) Siciliya
E) Sardiniya

**6**. Rum rəqəmlərilə verilmiş dağlar üçün aşağıdakı fikirlərdən hansılar doğrudur?
I Skandinaviya
II Alp
III Karpat
IV Ural
1. I və IV dağlar Şimal qütb dairəsi xətti ilə kəsişir.
2. II və III dağlar Verxoyansk dağları ilə eyni geoloji erada yaranmışdır.
3. III və IV dağlarla eyni yaşda olan dağlara ölkəmizdə rast gəlinir.
4. II və IV dağlar yalnız bir ölkənin ərazisində yerləşir.
5. Yalnız II dağın mütləq hündürlüyü 4000-dən çoxdur.

A) 2, 4
B) 1, 5
C) 1, 3
D) 4, 5
E) 2, 3

**7**. Xəritə-sxemdə təsvir edilmiş adalar litosfer tavalarının konvergent sərhədində yerləşir. Bu adaların üzərində dayanan müşahidəçi gecə vaxtı buludsuz havada səmaya baxarkən Qütb ulduzunu (Polaris) görə bilər. Bu adalar üçün doğru fikirləri müəyyən edin.



1. Fəaliyyətdə olan vulkanlar mövcuddur.
2. İnkişaf etməkdə olan ölkənin ərazisidir.
3. Mülayim işıqlanma qurşağında yerləşir.
4. Yerli vaxtı ölkəmizin yerli vaxtından geridir.
5. Bu adalarda yerləşən ölkə, dünyanın sahəsinə görə ən böyük ölkəsi ilə su sərhədinə malikdir.
6. Musson küləkləri müşahidə edilmir.

A) 1, 3, 5  B) 2, 3, 5  C) 1, 3, 6
D) 2, 4, 6  E) 1, 4, 5

**8**. Təbii ehtiyyatların düzgün verildiyı sıraları müəyyən edin.

| № | tükənən bərpa olunan | tükənən bərpa olunmayan |
|---|---|---|
| 1 | su | neft |
| 2 | torpaq | hava |
| 3 | bitki örtüyü | dəmir filizi |
| 4 | fosforit | heyvanat aləmi |
| 5 | hava | təbii qaz |
| 6 | su | torpaq |

A) 1, 3, 6
B) 2, 4, 6
C) 1, 2, 4
D) 3, 4, 5
E) 1, 3, 5

**9.** Yer kürəsinin sxemdəki vəziyyətlərini nəzərə alaraq, cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

<table>
<tr><td></td><td></td></tr>
<tr><td>1. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Madaqaskarda gündüzün uzunluğu azalmağa başlayır.<br>2. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Şimal yarımkürəsi daha çox işıq alacaq.<br>3. Bu tarixdə günorta vaxtı London şəhərində düzənlik ərazidə günəş şüalarının maksimum düşmə bucağı müşahidə edilir.</td><td>4. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Bakı şəhərində gündüzlərin uzunluqları artmağa başlayır.<br>5. Bu vəziyyətin baş verdiyi tarixdən sonrakı tarixlərdə Cənub tropik xəttindən cənubda qalan məntəqələrdə yerləşən şaquli cisimlərin günorta vaxtı kölgə uzunluqları artacaq.<br>6. Bu tarixdə günorta vaxtı 45° şimal enliyinə günəş şüaları 23,5° bucaq altında düşür.</td></tr>
</table>

A) 2, 4, 6  B) 1, 2, 5  C) 3, 4, 5
D) 1, 3, 6  E) 1, 2, 6

**10**. Əgər Yer kürəsi 1 saatda 18° dönsəydi Bakı şəhəri hansı saat qurşağında yerləşərdi?
A) III  B) II  C) IV  D) V  E) VI

**11.** Uyğunluğu müəyyən edin.

| I Siklon | II Antisiklon |
|---|---|
| a. Hava mərkəzdən kənarlara doğru hərəkət edir.<br>b. Havanın qalxan hərəkəti müşahidə olunur.<br>c. Hava kənardan mərkəzə doğru hərəkət edir.<br>d. Quru, aydın və buludsuz hava şəraiti yaranır.<br>e. Şimal yarımkürəsində saat əqrəbi istiqamətində hərəkət edir. | f. Atmosferin qapalı yüksək təzyiq sahəsində əmələ gəlir.<br>g. Havanın enən hərəkəti müşahidə olunur.<br>h. Hava mərkəzdən kənara doğru hərəkət edir.<br>j. Buludlu və rütubətli hava müşahidə olunur.<br>k. Cənub yarımkürəsində saat əqrəbi istiqamətində hərəkət edir. |

A) I – c, d, e; II – g, k
B) I – b, c, d; II – f, g, h, j
C) I – a, c; II – f, j, k
D) I – b, c; II – f, g, h
E) I – a, b, c, e; II – f, g, h

**12.** Verilmiş fikirlərin doğru (D) və yanlış (Y) olduğunu müəyyən edin.
1. Afrika materikinin şimal hissəsində çöl təbii zonası geniş sahə tutur.
2. Ekvatorial iqlim qurşağı yalnız iki materikdə rast gəlinir.
3. Respublikamızın ərazisində ən az yağıntı Puta məntəqəsinə düşür.
4. Dünyada ən çox yağıntı düşən məntəqə Afrika materikində yerləşir.
5. Kanar cərəyanı Afrika materikinin şimal-şərq sahillərinin iqliminə təsir gedir.
6. Pireney, Apennin və Kiçik Asiya yarımadalarında codyarpaqlı meşələr təbii zonası yayılmışdır.
A) 1-Y, 2-Y, 3- D, 4-D, 5-Y, 6-D
B) 1-D, 2-Y, 3-D, 4-D, 5-Y, 6-Y
C) 1-Y, 2-D, 3-Y, 4-Y, 5-D, 6-Y
D) 1-Y, 2-Y, 3-D, 4-Y, 5-Y, 6-D
E) 1-D, 2- Y, 3-Y, 4-D, 5-Y, 6-Y

**13**. Avstraliya İttifaqı, Yeni Zelandiya, CAR və İsrail üçün ümumi fikirləri müəyyən edin.
1. Köçürmə kaptalizm ölkələridir.
2. İqtisadi inkişaf səviyyəsinə görə İEÖ-lər qrupuna daxildirlər.
3. Şərq yarımkürəsində yerləşirlər.
4. Ərazilərində Günəş zenitdə olmur.
5. Urbanizasiya səviyyələri aşağıdır.
6. Neft ixrac edən ölkələrdir.

A) 2, 3, 5 B) 1, 2, 6 C) 1, 2, 3
D) 1, 3, 4 E) 3, 4, 6

**14**. Verilmiş bütün fikirlərin səciyyəvi olduğu materikləri müəyyən edin.
*– Ərazisində Günəş zenitdə olur.*
*– Ərazisində cavan dağlara rast gəlinir.*
*– Subekvatorial iqlim qurşağında yerləşir.*
*– Sahillərini yalnız iki okean suları yuyur*
*– Hündürlüyü 3000 m-dən çox olan dağ zirvələri mövcuddur.*

**Materiklər**
I Afrika
II Şimali Amerika
III Cənubi Amerika
IV Avstraliya

A) II və IV
B) I, II, III və IV
C) I və III
D) II və III
E) Yalnız III

**15.** Mingəçevir şəhərində 01.01.1990-cı ildə əhalinin sayı 85,5 min, 01.01.2010-cu ildə isə 97,5 min nəfər olmuşdur. Bu dövrdə şəhərdə miqrasiya hesabına əhalinin sayı 2,8 min nəfər artmışdır. Təbii artım hesabına əhalinin neçə nəfər artdığını hesablayın.
A) 11,2 min nəfər
B) 12 min nəfər
C) 7,4 min nəfər
D) 8,6 min nəfər
E) 9,2 min nəfər

**16.** Çirklənməyə daha çox məruz qalmış hidroloji obyektlər:

| | |
|---|---|
| 1. Volqa çayı | 2. Kolıma çayı |
| 3. Yana çayı | 4. Aralıq dənizi |
| 5. Karib dənizi | 6. Kara dənizi |
| 7. İran körfəzi | 8. Böyük Ayı gölü |

A) 1, 3, 4, 5  B) 1, 4, 5, 7
C) 2, 4, 6, 8  D) 2, 5, 7, 8
E) 1, 3, 5, 6

**17.** Doğru sıraları müəyyən edin.

| № | Günəş şüalarının günorta vaxtı ilboyu yalnız cənub tərəfdən düşdüyü adalar | Günəş şüalarının günorta vaxtı ilboyu həm şimal həm də cənub tərəfdən düşdüyü adalar | Günəş şüalarının günorta vaxtı ilboyu yalnız şimal tərəfdən düşdüyü adalar |
|---|---|---|---|
| 1 | İrlandiya | Sumatra | Tasmaniya |
| 2 | Kuba | Yava | Folklend |
| 3 | Honşu (Honsyu) | Nyufaundlend | Siciliya |
| 4 | Kipr | Şri-Lanka | Kergelen |
| 5 | Yava | Haynan | Aleut |
| 6 | Saxalin | Mindanao | Odlu Torpaq |

A) 1, 3, 6
B) 2, 3, 5
C) 1, 4, 6
D) 2, 4, 5
E) 1, 2, 4

**18.** Avropa qitəsinin üçün hansı fikirlər doğrudur?
1. Arktik və mülayim iqlim qurşaqları daha böyük sahə tutur.
2. Fəaliyyətdə olan vulkanlara rast gəlinir.
3. Fiord tipli sahillərin olduğu ərazilər seysmik cəhətdən fəal hesab edilir.
4. Kənd təsərrüfatı üçün ən çox yararlı ərazi Şimali Avropa regionundadır.
5. Ərazisindən axan çaylar iki okeanın sutoplayıcı hövzəsinə aiddir.
6. Ən uzun çayı daxili axarsız hövzəyə aiddir.
A) 1, 3, 4
B) 2, 5, 6
C) 3, 5, 6
D) 2, 3, 4
E) 1, 5, 6

**19.** İnkişaf etmiş ölkələr (İEÖ) üçün doğru fikirləri müəyyən edin.
1. Urbanizasiya səviyyəsi yüksəkdir.
2. Emmiqrasiya üstünlük təşkil edir.
3. Latın Amerikasında yalnız bir dövlət bu qrupa aiddir.
4. Sinqapur və Qətər ölkələri bu qrupa daxildir.
5. Xidmət sahələrinin məşğulluqda payı yüksəkdir.
A) 4, 5
B) 2, 3
C) 1, 5
D) 1,3
E) 2, 4

**20.** Şırlan, Xalxal, Çuxuryurd, Xaşı mineral bulaqlarının yerləşdiyi inzibati rayonları müvafiq olaraq sıralayın.
A) Laçın, Qəbələ, Quba, Qusar
B) Şuşa, Oğuz, Şamaxı, Quba
C) Şahbuz, Gədəbəy, Xaçmaz, Zaqatala
D) Zəngilan, Masallı, Qobustan, Şabran
E) Şuşa, Oğuz, Qəbələ, Gədəbəy

**21.** Dəniz səviyyəsindən aşağıda yerləşən qoruq və ya milli parkları müəyyən edin.
A) Abşeron, Şirvan, Bəsitçay
B) Eldar şamı, Qarayazı, Ağgöl
C) Hirkan, Qaragöl, Korçay
D) Qızılağac, Şirvan, Samur-Yalama
E) Türyançay, Qarayazı, Qızılağac

**22.** Sxemdə verilmiş litosfer tavalarının sərhədində baş verən hadisələri müəyyən edin.




1. Atlas dağları yaranır.
2. Novşəkilli çökəkliklər yaranır.
3. Müqəddəs Yelena adası yaranır.
4. Atlantik okeanının sahəsi artır.
5. Rift dərələri yaranır.
6. Kanar adaları yaranır.
A) 1, 4, 5
B) 1, 2, 6
C) 2, 3, 5
D) 2, 4, 6
E) 3, 4, 5

**23.** Ancaq antropogen landşaftı təsvir edən şərti işarə və ya işarələri müəyyən edin.




A) yalnız IV
B) II, III və IV
C) II və III
D) yalnız I
E) I və II

**24.** Uyğunluğu müəyyən edin.

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Peru və Myanma ərazisindən axan çaylar iki okean hövzəsinə aiddir.<br>2. Kara və Barens dənizləri üzərində formalaşan və qış aylarında ölkəmizə daxil olan hava kütləsi dəniz-arktik hava kütləsidir.<br>3. Qneys maqmatik, mərmər isə çökmə süxurların metamorfikləşməsindən yaranıb. | 4. Alp, Qafqaz və Tyan-Şan dağları quruluşuna görə qırışıq dağlar hesab edilir.<br>5. Merkuri və Venera planetlərinin peykləri mövcud deyil.<br>6. Təbiətdə ən çox yayılmış süxurlar qranit və mərmərdir. |

A) 1, 3, 4
B) 2, 5, 6
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 2, 6

**25.** Xəritə-sxemə əsasən yay otlaqları kimi istifadə edilən bitki örtüyü hansı rəqəm və ya rəqəmlərlə göstərilib?




A) 1, 3, 8  B) 2  C) 4 və 7  D) 7  E) 5 və 6